TÜRKİYƏ

**Türkiyədə fəaliyyət göstərən Azərbaycan dərnəkləri tərəfindən 18 Mart - Çanaqqala Dəniz Zəfərinin 110-cu ildönümü ilə bağlı Prezident Rəcəb Tayyib Ərdoğana məktub ünvanlanıb. Məktubda deyilir: "Çanaqqala Zəfərinin izləri bu gün də bizə ilham verir. 2020-ci ildə Azərbaycanın Qarabağdakı torpaqlarını işğaldan azad etmək uğrunda apardığı mübarizədə Çanaqqala ruhunun yenidən canlandığını və türk millətinin birliyinin gücünün bir daha dünya səhnəsinə çıxardığını görmək bizə böyük qürur verdi. Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizədə qazandığı bu Zəfər "Bir millət, iki dövlət" anlayışının nə qədər güclü və mənalı olduğunu bir daha göz önündə canlandırdı. Çanaqqaladan Qarabağa uzanan bu Zəfər yürüşü türk millətinin gücünün, dözümünün və qardaşlıq anlayışının rəmzidir. Türkiyə Azərbaycanın yanında qətiyyətlə dayanaraq Qarabağ Zəfərinin qazanılmasında mühüm rol oynadı".**




**Çanakkale Savaşları, milletimizin zamanın en güçlü ve donanımlı ordularına karşı vatan sevgisi, inanç, dayanışma, birlik ve beraberlik duyguları ile vermiş olduğu büyük bir mücadeledir.18 Mart Çanakkale Deniz Zaferi ve Şehitleri Anma Günü yıldönümünde başta Gazi Mustafa Kemal Atatürk olmak üzere ebediyete intikal eden kahramanlarımızı ve vatanını canından aziz bilen tüm şehitlerimizi ve gazilerimizi rahmet ve minnetle anıyoruz.**



# Çanaqqaladan Qarabağa uzanan Zəfər yürüşü

Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) İdarə Heyətinin sədri Ədalət Turanın imzası ilə göndərilən məktubdan sonra bildirilib ki, türk millətinin tarix boyu qəhrəmanlıqla müşayiət olunan yürüşü hər dövrdə misilsiz bir dözüm və qətiyyət rəmzi olub. Bu yürüşün ən parlaq nümunələrindən biri də Çanaqqala Zəfəridir. 1915-ci il martın 18-də türk millətinin azadlıq və müstəqillik uğrunda apardığı bu mübarizənin təkcə Osmanlı dövlətinin deyil, bütün türk dünyasının taleyini formalaşdırdığı həqiqət yaddaşımızda dərin iz qoyub. Çanaqqala Zəfəri türk millətinin hər şəraitdə qarşısına çıxan çətinlikləri aşmaq əzminin rəmzinə çevrilməklə yanaşı, Azərbaycan ilə Türkiyənin qardaşlıq bağlarının daha da möhkəmlənməsidir. Çanaqqalada vuruşan azərbaycanlı əsgərlər Vətəni qoruma şərəfini daşıyaraq bir millətin gücünün yalnız torpaq sərhədləri ilə deyil, mənəvi bağlarla da formalaşdığını bütün dünyaya nümayiş etdirdilər. Prezident R.T.Ərdoğanın liderliyi ilə türk dünyasının birliyinin daha da möhkəmləndiyinin, İkinci Qarabağ müharibəsi dövründə qardaş ölkənin verdiyi mənəvi və siyasi dəstəyin vurğulandığı mətndə, həmçinin deyilir: "Bu gün sizin rəhbərliyiniz ilə Türkiyə məzlum xalqlara ümid olmağa davam edir və türk dünyasında sülhün, əmin-amanlığın qarantı kimi çıxış edir. Sizin liderliyiniz ilə türk milləti tarixdəki ən önəmli zəfərlərin arxasında dayanan birlik və dözüm gücünə sahib çıxaraq hər zaman bir-birinə bağlı və güclü qalıb. Çanaqqalada başlayan Zəfərin Qarabağda davam etməsi, bu torpaqlarda yaşayan hər bir vətəndaş üçün qürur mənbəyidir. Bu zəfərlərin gələcək nəsillərə ötürülməsi və birlik, qardaşlıq bağlarının daha da güclənməsi üçün atılacaq hər addımda türk millətinin iradəsi və qətiyyəti yol göstəricisi olacaq".

TÜRKİYE AZERBAYCAN DERNEKLERİ FEDERASYONU TADEF

Onu da qeyd edək ki, Çanaqqala Dəniz Zəfərinin 110 illiyi münasibətilə Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası (TADEF) və Çanaqqala Ülkü Ocaqlarının birgə təşkilatçılığı ilə bu gün Türkiyə və Azərbaycan şəhidləri "Çanaqqaladan Qarabağa uzanan Zəfər yolu" adlı tədbirlə yad ediləcək.

Tədbirdə iştirak etmək üçün İstanbuldan 120 nəfərlik heyət Çanaqqalaya səfər edib. Türkiyədə fəaliyyət göstərən QHT nümayəndələrinin, qardaş ölkədə təhsil alan azərbaycanlı tələbələrin də iştirakı ilə baş tutacaq tədbirdə Çanaqqala Şəhidliyi, o cümlədən buradakı Azərbaycan Şəhidliyi ziyarət ediləcək, ortaq tariximizin ən şanlı səhifələrindən olan Çanaqqala Zəfəri uğrunda canından keçən qəhrəmanlarımız yad ediləcək.

Qeyd edək ki, bu məqsədlə Çanaqqalada təşkil olunacaq tədbirlər çərçivəsində Türkiyənin Hərbi Dəniz Qüvvələri Komandanlığı tərəfindən martın 18-də Azərbaycanın Əməkdar incəsənət xadimi, Yeddintəpə Universitetinin professoru, rəssam Rafiq Əzizin qardaş ölkənin fərqli vilayətlərinin dəniz muzeylərində sərgilənən və Türkiyə Milli Müdafiə Nazirliyinin kolleksiyasına daxil edilən dəyərli əsərlərindən ibarət sərgi də açılacaq.

Xatırladaq ki, Çanaqqala müharibəsində də Balkan müharibəsində olduğu kimi, 3000-ə yaxın azərbaycanlı qəhrəman iştirak etmişdir.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**